# “Çox vacib istiqamət məktəblərin rasionallaşmasıdır”

Sentyabrın 16-da elm və təhsil naziri Emin Əmrullayev AzTV-nin "Əsas məsələ" proqramında qonaq olub, eləcə də Real TV-də yayımlanan "Mir Şahinin vaxtı” verilişinə eksklüziv müsahibə verib. Hər iki proqramda elm və təhsil naziri ilə yeni tədris ilinə hazırlıq prosesi, müəllimlərin sertifikatlaşdırılması, məktəb infrastrukturunun yenilənməsi, işğaldan azad edilmiş ərazilərdə görülən işlər, ali təhsil, peşə təhsilinin inkişafı və digər mövzular ətrafında söhbət aparılıb.



**Elm və təhsil naziri Emin Əmrullayevin AzTV və Real TV-də müsahibəsindən**

## ƏSAS ÇIXARIŞLAR

**“Bu il Ağalı kənd tam orta məktəbində 11 sinifdə 120 şagird təhsilini davam etdirəcək”.**

**“Fizuli şəhərində Mirzə Uluqbəy adına 1 nömrəli məktəb Azərbaycan üçün çox böyük və mənəvi bir hadiyyədir”.**

**“3500-dən artıq məktəb həm Azərbaycan hökuməti, həm də Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir olunub və ya yenidən tikilib”.**

**“Çox vacib istiqamət məktəblərin rasionallaşmasıdır, düzgün qərarlar verilməlidir”.**

**“Növbəti 4-5 ildə biz sıxlığı əsaslı şəkildə azaltmağı düşünürük”.**

**“5 yaşlı uşaqların 90 faizinin məktəbəhazırlıq qruplarına cəlb edilməsi prosesi Azərbaycan təhsilinin son illər əldə etdiyi ən böyük uğurlarından biridir”.**

**“2026-cı ilə qədər bütün bölgələrdə olan müəllimləri bütün fənlər üzrə qiymətləndirilmələrdən keçirəcəyik”.**

**“Əvvəllər 18 min insan müəllim olmaq istəyirdisə, artıq belə şəxslərin sayı 50-55 minə çatıb. Müəllim olmaq istəyənlərin sayı əsaslı şəkildə artıb”.**

**“Peşə təhsili istiqamətində əsas iki problemimiz var -keyfiyyət və əhatəlilik”.**

**“Hər il peşə təhsili müəssisələrinə qəbulun 25000-ə qədər artması müsbət haldır”.**

**“Növbəti illərdə artıq Lənkəran, Quba, Qax, Sumqayıt, Bakı şəhərində qardaş Türkiyə Cümhuriyyəti ilə birlikdə peşə təhsili üzrə layihələr nəzərdə tutulur”.**

**“Son 10 ildə Azərbaycanda yerləşən ali təhsil müəssisələrinə qəbul olunanların sayında 40 faiz artım müşahidə edilir”.**

**“Məcburi köçkünlər, şəhid ailələri və qazilər dövlət sifarişli ixtisaslara yiyələnmək hüququna malikdirlər”.**

**“Bu il ilk dəfə olaraq peşə təhsili müəssisələri məzunları subbakalavr pilləsini bitirərək birbaşa olaraq ali təhsil müəssisələrinə qəbul almaq imkanları əldə ediblər”.**

**“2007-ci ildən Prezidentin təşəbbüsü ilə həyata keçirilən Dövlət Proqramı minlərlə Azərbaycan gəncinə dünyanın ən nüfuzlu ali təhsil müəssisələrində çox keyfiyyətli təhsil almaq imkanı qazandırır”.**

**“Builki proqram çərçivəsində 50 nəfərə yaxın gənc dünyanın top 10 universitetinə qəbul alıb”.**

**“Hazırda 1000 nəfərdən artıq gəncin dünyanın 500 ən yaxşı ali təhsil ocaqlarında təhsil almasını Azərbaycan tarixində yeni səhifə kimi dəyərləndirirəm”.**

**“Ümumilikdə Tələbə Krediti Fondu tərəfindən 19,5 milyon manat vəsait kredit olaraq verilib və 21587 nəfər bu kreditlərdən yararlanıb. 2026-2027-ci ilə qədər bu məbləğin 38 milyon manata qədər qaldırılması proqnozlaşdırılır”.**

**“Rəqəmsal bacarıqlar layihəsi bu il 400 mindən artıq şagirdi əhatə edir”.**

**“STEAM layihəsi genişləndirilib və 100 mindən artıq şagirdi əhatə edir”.**

**“Əsas məqsəd olaraq Azərbaycan məktəblərində Azərbaycan dilli məzmunu artırmaq nəzərdə tutulur, bu qətiyyən digər dilləri öyrənməmək anlamına gəlmir”.**

**“Zəfər” tarixinin tədrisinə başlanılıb və bütün məktəblərdə “Zəfər” tarixi Azərbaycan dilində tədris olunur”.**

**“Azərbaycan təhsilinin gələcəyini mövcud problemlərin həll olunmasında, bu yolda ediləcək səhvlərdən qorxmamaqda, əksinə, səhvlərdən öyrənməkdə, daha yaxşı işlər görməyə davam etməkdə, təkmilləşdirməkdə görürəm”.**